**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

"Təsdiq edirəm"
Tədris məsələləri üzrə prorektor v.i.e:
_________ dos. Zaur Məmmədov
"13" yanvar 2026-cı il

**Fənn sillabusu**
(işçi tədris proqramı)

**İxtisasın şifri və adı: 6004002 -"Biznesin idarə edilməsi A,B", 6008007 -"Turizm bələdçiliyi"**
**Fakültə**: "İqtisadiyyat və idarəetmə"
**Kafedra:** "İqtisadiyyat və innovativ idarəetmə"
**I. Fənn haqqında məlumat**:
**Fənnin adı: S/f "Sahibkarlığın əsasları və biznesə giriş"** (Fənn proqramı Lənkəran Dövlət Universitetinin Elmi Şurasının 09.07.2025-ci il tarixli 06 saylı qərarı ilə təsdiq olunmuşdur.)
**Kodu:** HFS-B04.2
**Tədris ili:** I (2025/2026)
**Semestr:** II (yaz)
**Tədris yükü:** Cəmi: 90 saat. Auditoriya saatı - 30 (15 saat mühazirə, 15 saat seminar)
**Təhsilalma forması:** Əyani
**Tədris dili:** Azərbaycan dili
**AKTS üzrə kredit:** 3 kredit
**II. Müəllim haqqında məlumat:**
**Soyadı, adı, ata adı, elmi dərəcəsi və elmi adı:** Mirzəzadə Barat İsmayıl oğlu, müəllim
**Kafedranın ünvanı:** Lənkəran şəhəri, Füzuli küç., 170-a, LDU-nun 1 saylı tədris binası
**Məsləhət günləri və saatı:** II-V günlər: saat $14^{00}$-$16^{00}$
**E-mail ünvanı:** baratmirzezade@gmail.com
**III. Tövsiyə olunan dərslik, dərs vəsaiti və metodik vəsaitlər:**
1. Kuratko, D. F.*Entrepreneurship: Theory, Process, and Practice.*Cengage Learning, 11th Edition, 2024.
2. Vaqif Niftullayev. "Sahibkarlığın əsasları". Bakı-2002
3. Məhərrəmov A.M. Sahibkarlıq:nəzəriyyədən praktikaya. Bakı - 2009,358 s.
4. Romella Məhərrəmova, Solmaz Musayeva. "Sahibkarlıq". Bakı -2019,70 s.
5. Biznesin təşkili və idarə edilməsi. Dərslik. A.B.Abbasovun ümumi elmi redaktəsi ilə."Azərbaycan Dövlət İqtisad Universiteti" nəşriyyatı. Bakı - 2011,464 s.
6. Abbasov A.B., Abbasov S.A. Biznesin əsasları. "Elm və təhsil" nəşriyyatı. Bakı - 2017
7. Əhmədzadə M.İ. Biznes-plan: praktikum. Nafta-Press nəşriyyatı, Bakı-2010.

**IV. Prerekvizit fənlər:** Fənnin tədrisi üçün öncədən başqa bir fənnin tədrisinə zərurət yoxdur.
**V. Korekvizit fənlər:** Fənnin tədrisi ilə eyni zamanda başqa fənnin tədrisinə zərurət yoxdur.
**VI. Fənnin təsviri və məqsədi:**
"Sahibkarlığın əsasları və biznesə giriş" fənni tələbələrə sahibkarlıq fəaliyyətinin mahiyyəti, biznesin formalaşma prosesi və bazar iqtisadiyyatı şəraitində biznesin işləmə mexanizmləri haqqında ətraflı və sistemli biliklər vermək məqsədi daşıyır. Fənn tələbələrdə sahibkarlıq düşüncə tərzinin formalaşdırılmasına, təşəbbüskarlıq və məsuliyyət hissinin inkişafına yönəlmişdir. Fənn çərçivəsində sahibkarlıq anlayışı, onun əsas xüsusiyyətləri, iqtisadiyyatın inkişafında rolu və cəmiyyət üçün əhəmiyyəti izah olunur. Tələbələr biznesin yaranmasına səbəb olan iqtisadi və sosial amillər, bazar tələbi və təklif mexanizmi, istehlakçı davranışı, həmçinin biznes fəaliyyətində rəqabətin əhəmiyyəti ilə tanış olurlar. Fənn tələbələrə biznes

CamScanner ilə skan edilib

ideyasının necə yaranmasını, ideyanın bazar baxımından qiymətləndirilməsini və real biznesə çevrilməsi mərhələlərini addım-addım izah edir. Bu prosesdə bazar araşdırmasının aparılması, hədəf müştərilərin müəyyən edilməsi, məhsul və ya xidmətin seçilməsi kimi əsas məsələlər üzərində dayanılır. Eyni zamanda, fənn çərçivəsində biznesin təşkili üçün lazım olan resurslar – maliyyə, əmək, maddi və informasiya resursları – tələbələrə aydın şəkildə təqdim olunur. Sahibkarlıq fəaliyyətində risk anlayışı, risklərin növləri və onların azaldılması yolları sadə nümunələr əsasında izah edilir.

Fənnin əsas məqsədi tələbələrdə sahibkarlıq və biznes fəaliyyəti haqqında möhkəm ilkin bilik bazası formalaşdırmaq və onları gələcək peşə həyatına hazırlamaqdır. Bu fənn vasitəsilə tələbələrin biznesə marağı artırılır, onların müstəqil düşünmə, təşəbbüs göstərmə və yaradıcı yanaşma bacarıqları inkişaf etdirilir. Tələbələr biznes ideyasını formalaşdırmağı, bazar imkanlarını dəyərləndirməyi, sadə biznes-plan hazırlamağı və bizneslə bağlı əsas qərarları qəbul etməyi öyrənirlər. Fənn tələbələrdə riskləri düzgün qiymətləndirmək, maliyyə və resurslardan səmərəli istifadə etmək, rəqabət şəraitində düzgün strategiya seçmək kimi bacarıqların formalaşmasına xidmət edir. Eyni zamanda, tələbələr komanda şəklində işləmə, ünsiyyət qurma və məsuliyyət daşıma vərdişləri əldə edirlər. Bu fənn nəticəsində tələbələr gələcəkdə öz bizneslərini qurmaq və ya müxtəlif biznes strukturlarında fəaliyyət göstərmək üçün lazım olan ilkin nəzəri və praktiki biliklərə yiyələnir, əmək bazarında daha hazırlıqlı və rəqabətqabiliyyətli mütəxəssis kimi formalaşırlar.

**VII. Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı LDU-nun Elmi Şurasının 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII. Qiymətləndirmə:** Fənn üzrə tələbələrin biliyi 100 ballıq sistemlə qiymətləndirilir. Yəni tələbənin fənn üzrə toplaya biləcəyi balın maksimum miqdarı 100-ə bərabərdir. Bu balın yarısı (50 balı) tələbənin semestr müddətində fəaliyyətinin nəticəsinə (cari qiymətləndirmə), digər yarısı isə (digər 50 balı) imtahanın nəticəsinə (aralıq qiymətləndirmə) görə verilir.

*Fənn üzrə cari qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 bala aşağıdakılar daxildir:*

- *20 bal - seminar dərslərində fəaliyyətinə görə;*
- *30 bal - kollokviumların nəticələrinə görə.*

*Qiymətləndirmə zamanı LDU-nun Elmi Şurasının 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.*

*İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir. İmtahan yazılı şəkildə aparılır və imtahan biletinə bir qayda olaraq fənn üzrə tədris olunan mövzulara aid 5 sual daxil edilir. Hər sual maksimum 10 bal olmaqla qiymətləndirilir (aşağıda qeyd olunan qiymət meyarına əsasən) ki, bu da toplamda fənn üzrə aralıq qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 balı təşkil edir.*

*Qiymət meyarları aşağıdakılardır:*

- *10 bal - tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir;*
- *9 bal - tələbə keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun məzmununu tam aça bilir;*
- *8 bal - tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;*
- *7 bal - tələbə keçilmiş materialı yaxşı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir;*
- *6 bal - tələbənin cavabı əsasən düzgündür;*
- *5 bal - tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir;*
- *4 bal - tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;*
- *3 bal - tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;*
- *1-2 bal - tələbənin mövzudan qismən xəbəri var;*
- *0 bal - cavab yoxdur.*



CamScanner ilə skan edilib

Tələbənin fənn üzrə aralıq qiymətləndirmə balının (imtahanda topladığı balın) miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin fənn üzrə aralıq qiymətləndirmə balı cari qiymətləndirmə balına (semestr ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala) əlavə olunmur.

Fənn üzrə cari və aralıq qiymətləndirmənin ümumi nəticəsinə görə tələbənin biliyi yekun olaraq aşağıdakı kimi qiymətləndirilir:

| **Bal aralığı (göstərilən ballar daxil olmaqla)** | **Hərflə işarəsi** | **Sözlə yazılışı** |
|---|---|---|
| 91-100 bal | A | əla |
| 81-90 bal | B | çox yaxşı |
| 71-80 bal | C | yaxşı |
| 61-70 bal | D | kafi |
| 51-60 bal | E | qənaətbəxş |
| 51-baldan aşağı | F | qeyri-kafi |

**IX. Davranış qaydalarının pozulması:**

Tələbə Universitetin Daxili intizam qaydalarını pozduqda onun barəsində mövcud qanunvericilik çərçivəsində müvafiq tədbir görüləcəkdir.

**X. Təqvim mövzu planı:**

Mühazirə: 15 saat; Seminar: 15 saat; **Cəmi: 30 saat.**

| **№** | **Tədris olunan mövzuların məzmunu** | **Saat** | | **Tarix** |
|---|---|---|---|---|
| | | **Mühazirə** | **Seminar** | |
| 1. | **Mövzu № 1. Sahibkarlıq fəaliyyətinin məzmunu və əhəmiyyəti**<br>**Plan:**<br>1. Sahibkarlıq fəaliyyətinin məzmunu<br>2. Sahibkarlıq haqqında nəzəriyyələrin yaranması və inkişaf tarixi<br>3. Sahibkarlıq fəaliyyətinin mahiyyəti və məqsədi<br>4. Sahibkarlıq fəaliyyətinin subyektləri<br>5. Sahibkarın və alıcıların qərarlarına təsir göstərən amillər<br>**Mənbə:** [1-7] | 2 | 2 | |
| 2. | **Mövzu № 2. Müəssisə təsərrüfat fəaliyyətinin subyekti kimi**<br>**Plan:**<br>1. Müəssisə sahibkarlıq fəaliyyətinin təşkilati forması kimi<br>2. Müəssisə açıq sistem kimi<br>3. Hüquqi şəxs anlayışı<br>4. Müəssisələrin təsnifatı<br>5. Müəssisələrin birləşməsi<br>**Mənbə:** [1-7] | 2 | 2 | |
| 3. | **Mövzu № 3. Sahibkarlıq rəqabəti və növləri**<br>**Plan:**<br>1. Sahibkarlıq rəqabəti və növləri<br>2. Sahibkarlıq sirri və rəqabət<br>3. Sahibkarlıq risklərinin mahiyyəti və növləri | 2 | 2 | |



CamScanner ilə skan edilib

| | | | | |
|---|---|---|---|---|
| | 4. Lahiyələrin maliyyələşdirilməsi riskləri və risklərin sığortalanması<br>5. Biznes planın və sahibkarlıq risklərinin aşağı salınması<br>**Mənbə: [1-7]** | | | |
| 4. | **Mövzu № 4. Sahibkarlıq fəaliyyətinin mühiti və sferası**<br>**Plan:**<br>1. Sahibkarlıq fəaliyyətinin xarici mühiti<br>2. Sahibkarlıq fəaliyyətinin daxili mühitinin əsas amilləri<br>3. Sahibkarlıq fəaliyyətinin növləri<br>4. İstehsal sahibkarlığı<br>5. Kommersiya sahibkarlığı<br>6. Məsləhətçilik sahibkarlığı<br>7. Maliyyə sahibkarlığı<br>**Mənbə: [1-7]** | 2 | 2 | |
| 5. | **Mövzu № 5. Sahibkarlıq fəaliyyətində marketinq**<br>**Plan:**<br>1. Marketinqin funksiyaları<br>2. Marketinq tədqiqatlarının məzmunu<br>3. Marketinq tədqiqatının informasiya təminatı<br>4. Sahibkarlıq fəaliyyətində marketinq xidmətinin əhəmiyyəti<br>**Mənbə: [1-7]** | 2 | 2 | |
| 6. | **Mövzu № 6. Biznes və iqtisadi mühit**<br>**Plan:**<br>1. Biznes və onun mahiyyəti<br>2. Sahibkarlıq mühiti<br>3. Biznesin funksiyaları<br>4. Biznes planın hazırlanması və onun texniki iqtisadi əsaslandırılması<br>5. Biznes planın əsas parametrləri və göstəriciləri<br>**Mənbə: [1-7]** | 2 | 2 | |
| 7. | **Mövzu № 7. Biznes konsepsiyasının işlənib hazırlanması**<br>**Plan:**<br>1. Biznesin sferası və məqsədinin seçilməsi<br>2. Biznesin inkişaf strategiyası<br>3. Biznesin təşkili mərhələləri və onların məzmunu<br>4. Müəssisənin işinin təşkili<br>**Mənbə: [1-7]** | 2 | 2 | |
| 8. | **Mövzu № 8. Biznes mədəniyyəti**<br>**Plan:**<br>1. Biznes mədəniyyətinin mahiyyəti və əhəmiyyəti<br>2. Firma mədəniyyəti<br>3. İşgüzar etika<br>4. Milli biznesmenlərin əsas keyfiyyətləri<br>5. İşgüzar etiket<br>**Mənbə: [1-7]** | 1 | 1 | |
| **Cəmi** | | **15 saat** | **15 saat** | |

**XI. Fənn üzrə tələblər:**



CamScanner ilə skan edilib

Tələbələr mühazirə və məşğələlərdə mütəmadi iştirak etməli, dərs prosesində fəal olmalıdırlar. Fənn üzrə təqdim olunan mühazirə materialları və mövzuları müntəzəm şəkildə öyrənilməli, əsas anlayışlar mənimsənilməlidir. Tələbələr sadə biznes ideyası formalaşdırmaq və onun əsaslandırılmasını bacarmalıdırlar. Tələbələr fənnin məqsədlərinə uyğun olaraq məsuliyyətli və aktiv öyrənmə mövqeyi nümayiş etdirməlidirlər.

**XII. Fənnin tədrisi üçün nəzərdə tutulan tədris və öyrənmə metodları:**

-mühazirə, seminar, praktiki tapşırıqlar

-təqdimat və müzakirə

-debat

-müstəqil iş/araşdırma.

**XIII. Fənn üzrə təlim nəticələri:**

- Sahibkarlıq fəaliyyətinin məzmununu, mahiyyətini və iqtisadi əhəmiyyətini izah edir, sahibkarlıq haqqında əsas nəzəriyyələrin yaranma və inkişaf mərhələlərini şərh edir.
- Sahibkarlıq fəaliyyətinin əsas subyektlərini izah edir, hüquqi şəxs anlayışını açıqlayır və müəssisələrin təşkilati-hüquqi formalarını və təsnifatını fərqləndirir.
- Sahibkarlıq rəqabətinin mahiyyətini, növlərini və sahibkarlıq sirri ilə əlaqəsini izah edir, sahibkarlıq risklərinin əsas növlərini müəyyən edir və risklərin azaldılması üsullarını dəyərləndirir.
- Sahibkarlıq fəaliyyətinin daxili və xarici mühitini təhlil edir, sahibkarlıq fəaliyyətinin əsas növlərini (istehsal, kommersiya, maliyyə və məsləhətçilik) bir-birindən fərqləndirir.
- Sahibkarlıq fəaliyyətində marketinqin rolunu və funksiyalarını izah edir, marketinq tədqiqatlarının məzmununu və informasiya təminatını müəyyənləşdirir.
- Biznes planın hazırlanmasının əsas mərhələlərini və göstəricilərini izah edir, biznes konsepsiyasının formalaşdırılması, biznes strategiyasının seçilməsi və biznes mədəniyyətinin əhəmiyyətini əsaslandırır.

**XIV. Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:** ______

______

**XV. Kollokvium sualları:**

**I. Kollokvium sualları:**

1. Sahibkarlıq haqqında nəzəriyyələrin yaranması və inkişaf tarixi
2. Sahibkarlıq fəaliyyətinin mahiyyəti və məqsədi
3. Sahibkarlıq fəaliyyətinin subyektləri
4. Sahibkarın və alıcıların qərarlarına təsir göstərən amillər
5. Müəssisə sahibkarlıq fəaliyyatinin təşkilati forması kimi
6. Hüquqi şəxs anlayışı
7. Müəssisələrin təsnifatı
8. Sahibkarlıq rəqabəti və növləri
9. Sahibkarlıq risklərinin mahiyyəti və növləri
10. Lahiyələrin maliyyələşdirilməsi riskləri və risklərin sığortalanması

**II. Kollokvium sualları:**

1. Sahibkarlıq fəaliyyətinin xarici mühiti
2. Sahibkarlıq fəaliyyətinin daxili mühitinin əsas amilləri
3. İstehsal sahibkarlığı
4. Kommersiya sahibkarlığı
5. Məsləhətçilik sahibkarlığı
6. Marketinqin funksiyaları



CamScanner ilə skan edilib

7. Marketinq tədqiqatının informasiya təminatı
8. Sahibkarlıq fəaliyyətində marketinq xidmətinin əhəmiyyəti
9. Biznes və onun mahiyyəti
10. Biznesin funksiyaları

## XVI. İmtahan sualları:

1. Sahibkarlıq haqqında nəzəriyyələrin yaranması və inkişaf tarixi
2. Sahibkarlıq fəaliyyətinin mahiyyəti və məqsədi
3. Sahibkarlıq fəaliyyətinin subyektləri
4. Sahibkarın və alıcıların qərarlarına təsir göstərən amillər
5. Müəssisə sahibkarlıq fəaliyyatinin təşkilati forması kimi
6. Müəssisə açıq sistem kimi
7. Hüquqi şəxs anlayışı
8. Müəssisələrin təsnifatı
9. Müəssisələrin birləşməsi
10. Sahibkarlıq rəqabəti və növləri
11. Sahibkarlıq sirri və rəqabət
12. Sahibkarlıq risklərinin mahiyyəti və növləri
13. Lahiyələrin maliyyələşdirilməsi riskləri və risklərin sığortalanması
14. Sahibkarlıq fəaliyyətinin xarici mühiti
15. Sahibkarlıq fəaliyyətinin daxili mühitinin əsas amilləri
16. Sahibkarlıq fəaliyyətinin növləri
17. İstehsal sahibkarlığı
18. Kommersiya sahibkarlığı
19. Məsləhətçilik sahibkarlığı
20. Maliyyə sahibkarlığı
21. Marketinqin funksiyaları
22. Marketinq tədqiqatlarının məzmunu
23. Marketinq tədqiqatının informasiya təminatı
24. Sahibkarlıq fəaliyyətində marketinq xidmətinin əhəmiyyəti
25. Biznes və onun mahiyyəti
26. Biznesin funksiyaları
27. Biznes planın hazırlanması və onun texniki iqtisadi əsaslandırılması
28. Biznesin sferası və məqsədinin seçilməsi
29. Biznesin inkişaf strategiyası
30. Biznesin təşkili mərhələləri və onların məzmunu
31. Biznes mədəniyyətinin mahiyyəti və əhəmiyyəti
32. Firma mədəniyyəti
33. İşgüzar etika
34. Milli biznesmenlərin əsas keyfiyyətləri
35. İşgüzar etiket

"S/f Sahibkarlığın əsasları və biznesə giriş" fənninin sillabusu **6004002 -"Biznesin idarə edilməsi A,B", 6008007 -"Turizm bələdçiliyi"** ixtisasları üzrə təhsil proqramı, tədris planı və fənn proqramı əsasında tərtib edilmişdir.

Sillabus "*İqtisadiyyat və innovativ idarəetmə*" kafedrasında müzakirə edilərək təsdiq edilmişdir (13.02.2026-ci il, **protokol № 6**).

**Fənn müəllimi:** **müəl. B.İ.Mirzəzadə**

**Kafedra müdiri v.i.e:** **dos.G.T.Əliyeva**



CamScanner ilə skan edilib